

Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

# Azərbaycan türklərinin Sacilər dövləti

***Abbasilər xilafəti (750-1258) tarixində IX əsrin axırı X əsrin əvvəlləri Xilafətin ucqarlarında yerli hökmdar və canişinlər arasında separatizm gücləndi.Əvvəlcə bu hökmdar və ya canişinlər öz vilayətlərindən yığılıb xəlifənin xəzinəsinə göndərilən vergilərin məbləğini azaltmağa başlayır,sonralar isə beyt ül-mala pul göndərilməsini tamamilə dayandırırdılar. Əgər belə bir mərkəzi hakimiyyətə qarşı çıxan daha zəif qonşusunun torpaqlarını özününkünə qatmağa,güclü qoşun təşkil etməyə və onun üstünə göndərilən nizami xəlifə ordularını məğlub etməyə nail olurdusa,xəlifələr onların öz vilayətlərində ağalıq etməyə tam ixtiyarı olduğunu qəbul edirdilər,yalnız bir şərtlə ki,onlar xütbə oxudanda xəlifənin adını çəkməyi öz öhdələrinə götürsünlər.***

Sacilər dövləti,IX əsrin axırıncı rübündə Xilafətdən ayrılmaq nəticəsində Azərbaycan ərazisində əmələ gəlmiş feodal dövləti idi.Sacilər IX əsrin ikinci yarısında meydana gəlib Azərbaycana bir neçə bacarıqlı hökmdar verən türk sülaləsindən idilər.Bu sülalə xilafət qarşısındakı xidmətlərinə görə Abbasi Xilafətində çox böyük əyalətlərdən olan Azərbaycanı bir mülk kimi almışdı.Sacilər ərəb əsarətinə qarşı mübarizə dövründə Azərbaycanda yaranmış güclü Azərbaycan dövlətlətlərindən biridi.Dövlətin əsasını 889-cu ildə Məhəmməd ibn Əbu Sac qoymuşdur.Sacilər dövlətini Sacilər yaratmışlar.Sacilər mənşəcə Mərkəzi Asiyanın Əşrusən vilayətindən idilər.Bu dövlət 941-ci ilə qədər mövcud olmuşdu.

## Əbu Sac Divdad

IX əsrdə xilafətə qarşı mübarizə şəraitində Azərbaycanda meydana gələn feodal dövlətlərindən biri Sacilər dövləti idi.Abbasi xilafətinin zəifləməsi nəticəsində vilayət hakimləri ilə yanaşı,ayrı-ayrı sərkərdələrin də nüfuzu artır,mövqeyi güclənirdi.Belə sərkərdələrdən biridə əslən Orta Asiya (Türküstan) türklərindən olan Əbu Sac Divdad olmuşdur.Əbu Sac Divdad Türküstandakı Usruşandan dağlıq Cankakat kəndindəndir.Abbasilərin apardığı müharibələrdə sədaqəti və Bizansa qarşı döyüşlərdə qəhrəmanlığı ilə Xəlifənin etibarını qazanan Əbu Sac Divdad Azərbaycana hakim təyin edilir və bununla da yeni sülalənin əsası qoyulur.Bu sülalənin nümayəndələri Afşin titulunu daşıyırdılar.

İlk dəfə Təbəri 837-ci ildə Babəkə qarşı müharibədə Əbu Sacın iştirakı ilə əlaqədar olaraq onun haqqında məlumat verir. Əbu Sac Divdad türk könüllülər dəstəsinin komandanı olaraq,Babəki tutmaq və Bərzəndə Afşin Heydər ibn Kavusun yanına aparmaqda fəal iştirak etmişdir.839-cu ildə Afşin Azərbaycanda üsyan qaldırmış Minkicavr əl-Fərqaniyə qarşı Əbu Sac Divdadı böyük bir ordunun başında göndərmişdi.Yenə həmin ildə Abbasi xəlifəsi Mötəsim onu, Xilafətə qarşı üsyan qaldırmış Təbəristan hakimi Məzyərin üstünə göndərir.Xəlifə Mütəvəkkil Əbu Sac Divdadı Məkkə yolunun rəisi təyin edərək,Cəfər ibn Dinarı bu vəzifədən çıxarmışdı.Bu,çox yüksək vəzifə idi,çünki bu vəzifə yalnız xəlifə sarayına,xüsusilə yaxın şəxslərə verilirdi və onun böyük gəliri vardı.Əbu Sac Divdad 865-ci ilədək bu vəzifədə qaldı.Həmin ildə xəlifə taxtına çıxmaq iddiasında olan əl-Müstəin (862-866) ilə əl-Mötəzz arasında baş verən ixtilafda Əbu Sac Divdad əl-Mötəzzin tərəfini saxladı və Cərcəraya məntəqəsində Bəikbak və digər əmirlərin komandanlığı altında əl-Müstəin tərəfdarlarının hərbi dəstələrini üç dəfə məğlub etdi.Sonra 856-cı ildə Əbu Sac Divdad Kufə və onun ətrafının canişini təyin olunur və yenidən Məkkə yolunun rəisi vəzifəsinə qayıdır.

Xəlifə əl-Mötəzz 868-ci ildə Əbu Sacı Divdadı Hələb və ucqar sərhədlərə hakim təyin edir. Əbu Sac 870-ci ilədək bu vəzifədə qaldı, sonra xəlifə əl-Mötəmid ona əmr etdi ki, ona qarşı üsyan qaldırmış Əhməd ibn İsa ibn Şeyxə qarşı müharibəyə getsin. Əbu Sac Divdad 874-cü ilədək İbn Şeyxə qarşı savaşlarda iştirak etmişdir.879-cu ildə Cündi Səburda öldü.

Əbu Sac Divdad öləndən sonra iki oğlu Məhəmməd vəYusif onun varisi oldular.




## Məhəmməd ibn Əbu Sac (889-901)

Əbu Übeydullah Məhəmməd ibn Əbu Sac,atası ölən ildə 879-cu ildə xəlifə əl-Mötəmid tərəfindən Məkkə və Mədinə hakimi və Məkkə yolunun rəisi təyin edilmişdi.

***882-ci ildə Məhəmməd ibn Əbu Sac Anbar canişini,Fərat və Rəhbiyyə yollarının rəisi təyin olundu.Məhəmməd bu vəzifədə özünü çox mahir hakim və sərkərdə kimi göstərib xəlifənin diqqətini cəlb etdi.Məhəmmədin keçirdiyi əhəmiyyətli hərbi əməliyyatlardan biri,onun 886-887-ci ildə Suriya canişini İshaq ibn Kundac üzərində qələbəsi idi.Məhəmməd bu zaman Mosul hakimi,Kinnisirin və digər şəhərlərin canişini idi.O,rütbəsinə görə,böyük idi,lakin İshaq onu tanımaqdan boyun qaçırdı və ona tabe olmadı.Onda Məhəmməd Əbu Sac Misir hakimi Xumaraveyh ibn Əhməd ibn Tulundan kömək istədi.Məhəmməd Xumaraveyhin hakimiyyətini tanıdı,öz oğlu Divdadı ona girov göndərdi və Misir qoşunlarının köməyi ilə bir neçə vuruşmada ishaq ibn Kundacın qoşunlarını darmadağın etdi. Həmin ildə Məhəmməd Mosul vilayətində üsyan edən xariciləri də əzdi.***

***Məhəmməd Misir qoşunlarının köməyi ilə Cəzirə və Mosulu əlinə keçirdi və öz himayədarı və müttəfiqi Tulunoğlu Xumaraveyhin əleyhinə çıxdı.Lakin məğlub edilərək,qaçmağa üz qoydu.Eyni əhvalat 888-889-cu ildə də təkrar olundu.İshaq ibn Kundac bu vəziyyətdən istifadə edərək Məhəmmədin əleyhinə çıxış etdi.Məhəmməd öz qoşunlarının az olmasına baxmayaraq İshaq ibn Kundacı məğlub etdi və bununla da xəlifənin tərifinə layiq görüldü.***

889-cu ildə Məhəmməd Əbu Sac Cibal hakimi təyin edildi və həmin ildə ilk dəfə olaraq Azərbaycan hakimi təyin edildi.

889-cu ildə Məhəmməd Əbu Sac Azərbaycanda Sacilər dövlətini yaratdı.Marağa hökmdarı Abdullah ibn Hüseyn əl-Həmədani onun əleyhinə qalxdı,lakin məğlub olaraq Marağaya çəkilib gizləndi; Məhəmməd yalnız uzun mühasirədən sonra şəhəri ala bildi.

892-ci ildə Məhəmməd Əbu Sac Abbasi Xilafətinə yenidən böyük xidmət göstərdi:xəlifə əl Mötəmidin ölümü nəticəsində Bağdadda baş verən qarışıqlıq və iğtişaş zamanında, Məhəmməd Əbu Sac taxtın canişini əleyhinə üsyan qaldıran qoşun və bədəviləri ixtişaşlarını yatırtdı.Yeni xəlifə əl-Mutədid (892-902) ona Azərbaycana qayıtmağa icazə verdi.

Xəlifə 898-ci ildə Məhəmməd Əbu Sacı Azərbaycan canişini kimi tanımaqla yanaşı digər dağlıq ölkələrin canişini təyin etdi və fəxri paltarla təltif etdi.899-cu ildə Bağdada gəldi,itaətsizlik göstərib Xilafətdən ayrılmayacağının təminatını alaraq,onun oğlu Əbül Müsafiri öz yanında girov kimi saxladı.

Gürcüstana basqın edən Afşin titulu daşıyan Məhəmməd Əbu Sac Tiflisi və digər şəhərləri talayıb viran etdi,lakin az sonra Azərbaycana qayıtmalı oldu,çünki I Sumbat onun getməsindən istifadə edərək,Ani və Dvini tutmuş və oğlu Divdadı ona bac verməyə məcbur etmişdi.Lakin Azərbaycan Sacilər Dövlətinin I Afşini Məhəmməd Əbu Sac yolda vəba xəstəliyinə tutulub öldü.Mənbələrdən belə məlumat verilir ki,901 –ci ildə Azərbaycanda vəba başlandı.O qədər adam öldü ki,ölülərə kəfən tapmaq mümkün olmadığı üçün paltara və keçəyə bürüyürdülər.Onları basdırmırdılar və onlar yollarda atılıb qalırdı.Sonra vəba Məhəmməd Əbu Sacın yaxın adamlarını tutdu,onun adamları və xidmətçilərinin çoxu öldü.Bundan sonra,Afşin deyə adlanan Məhəmməd Əbu Sac özü mart ayında Azərbaycanın Bərdə şəhərində öldü.

Məhəmməd ibn Əbu Sac Afşinin Azərbaycanda kəsdirdiyi 898-ci il və 900-ci il tarixli dirhəm sikkələri məlumdur.

Divdad ibn Məhəmməd ( Mart 901- Oktyabr,901).

SasilərDövlətinin II Afşini Divdad ibn Məhəmməd idi.Atasının ölümündən sonra cəmi 7 ay taxtda qalmış,əmisi tərəfindən devrilmişdir.

## Yusif ibn Əbu Sac Divdad (901-928)

Əbu Sac Divdadın ikinci oğlu Əbül Qasim Yusif (884-885)-ci ildə Məkkə hakimi idi.Həcc zamanı o, Mədinə hakimi və Məkkə yolu rəisi Əhməd ibn Məhəmməd ət-Tainin dəstəsinin qoruduğu zəvvarlara hücum etmişdi.Məkkə darvazaları yanındakı savaşda Yusif məğlub edilib əli-qolu zəncirli halda Bağdada göndərilmişdi.Sonrakı illərdə Yusifin nə iş gördüyü barədə mənbələrdə bir söz deyilmir.Yalnız 893-cü ildə Təbəri belə məlumat verir ki,Yusif ibn Əbu Sac Mosul yolunda xaricilərə hücum edərək onların bir hissəsini qırmışdı.

***895-ci ildə xəlifə əl-Mutədid Yusifi xaricilərə qarşı mübarizə üçün əs-Saymaraya Fəth əl-Kəlanisinin köməyinə göndərmişdi,lakin Yusif oraya gedərkən özünə tabe olanlarla birlikdə şimala tərəf getdi və Marağaya öz qardaşı Məhəmməd Afşinin yanına gəldi.901-ci ildə Məhəməd Afşinin ölümünədək Yusif Azərbaycanda qaldı,lakin iş başında olmadı.***

***Yusif bütün Azərbaycan torpaqlarını ilk dəfə vahid müstəqil dövlət çərçivəsində birləşdirən ilk hökmdardır.***

Məhəmməd Əbu Sac öləndən sonra,onun qoşunları məclis qurdular və oğlu Divdadı özlərinə başçı seçdilər.Yusif onları tərk etdi,lakin qısa müddətə.Yusif 901-ci ilin oktyabrında öz tərəfdarlarını toplayıb,qardaşı oğlunun qoşununa hücum etdi.Divdadın tərəfdarları qaçdılar və o,tək qaldı.Saci qoşunu Yusifə itaət etdi,o da xəlifənin Azərbaycan hakimi və canişini yerini tutdu.Yusif Divdada təklif etdi ki, onun yanında qalsın,lakin Divdad bu təklifi rədd etdi və Bağdada xəlifənin yanında qulluq etməyə getdi.

Yusif ibn Əbu Sac Divdad 901-928-ci illərdə Sacilər Dövlətinin III Afşini oldu.Hakimiyyətə gəldikdən sonra ilk işi paytaxtları olan Marağanın divarlarını sökdürərək paytaxtı Ərdəbilə köçürmək oldu.Sacilərin 889-901-ci illərdə paytaxtları Marağa şəhəri olmuşdu.901-941-ci illərdə paytaxt Ərdəbil idi.

Bu zaman Yusif ibn Əbu Sac Xilafətdən ayrılmaq üçün birinci ciddi təşəbbüs göstərir.Xəlifə əl-Müktəfi (902-908) təklikdə Yusifin öhdəsindən gələ bilmədiyinə görə I Sumbata məktub yazaraq təkilf etdi ki,qoşunla Yusifin üstünə getsin.I Sumbat qoşununu yeritdi,lakin bu barədə Yusifin özünə xənbər verməyi qət etdi. Cavab olaraq 907-ci ildə Yusif ibn Əbu Sac Divdad öz qoşununu I Sumbatın üstünə yeritdi.

***Lakin xəlifə əl-Müktəfinin ölümü Yusif haqqındakı planını həyata keçirməyə mane oldu. Xilafət taxtına çıxan əl-Müqtədir (908-932) Yusif ibn Əbu Sacı Marağa hakimi və Azərbaycanın canişini vəzifəsinə təyin etdi.***

**(ardı var)**

***882-ci ildə Məhəmməd ibn Əbu Sac Anbar canişini,Fərat və Rəhbiyyə yollarının rəisi təyin olundu.Məhəmməd bu vəzifədə özünü çox mahir hakim və sərkərdə kimi göstərib xəlifənin diqqətini cəlb etdi.Məhəmmədin keçirdiyi əhəmiyyətli hərbi əməliyyatlardan biri,onun 886-887-ci ildə Suriya canişini İshaq ibn Kundac üzərində qələbəsi idi.Məhəmməd bu zaman Mosul hakimi,Kinnisirin və digər şəhərlərin canişini idi.O,rütbəsinə görə,böyük idi,lakin İshaq onu tanımaqdan boyun qaçırdı və ona tabe olmadı.Onda Məhəmməd Əbu Sac Misir hakimi Xumaraveyh ibn Əhməd ibn Tulundan kömək istədi...***